Qərb Universitetinin Elmi Şurasının
__________ tarixli, _________ N-li
protokoluna əsasən rektorun əmri ilə
təsdiq edilmişdir

# QƏRB UNİVERSİTETİ
# Apellyasiya Komissiyasının
# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Qərb Universitetinin Apellyasiya Komissiyasının (bundan sonra Komissiya) statusu, fəaliyyəti və idarəetməsi AR – nın təhsil qanunvericiliyi, ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi, Universitetin Nizamnaməsi və bu Əsasnamə ilə müəyyən edilir.

1.2. Komissiya fəaliyyəti zamanı Azərbaycan Respublikasının qanunlarını, o cümlədən, "Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu"nu, təhsillə bağlı qanunvericilik aktlarını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmr, sərəncam və göstərişlərini, Qərb Unversitetinin Elmi Şurasının qərarlarını, Universitet rəhbərliyinin əmr və göstərişlərini, həmçinin təhsilə dair əmək qanunvericiliyinin tələblərini əsas götürür.

1.3. Komissiyanın fəaliyyəti Qərb Universitetinin Tədris işləri üzrə Prorektorunun rəhbərliyi altında həyata keçirilir.

1.4. Komissiyaya rəhbərlik Universitetin Tədris işləri üzrə Prorektorunun təqdimatı əsasında Universitetin rektoru tərəfindən vəzifəyə təyin edilən Sədr tərəfindən həyata keçirilir.

1.5. Komissiya müstəqil qurum olub Universitetin bütün fakültələri, kürsüləri, digər struktur bölmələri ilə əlaqəli fəaliyyət göstərir.

1.6. Komissiyanın əsas məqsədi tələbələrin apellyasiya şikayətlərini qanunçuluq, obyektivlik və bərabərlik prinsipi əsasında araşdırmaq və şikayətlər barədə qanuni qərarlar qəbul etməkdir. Komissiyanın işinə müdaxilə yolverilməzdir.

## 2. Komissiyanın təşkili və apellyasiya şikayətinə baxılması

2.1. Tələbələrin imtahanların nəticələrindən verdiyi Apellyasiya şikayətinə baxılması üçün Universitetin Tədris işləri üzrə prorektoru tərəfindən apellyasiya komissiyası yaradılır. Komissiyanın üzvləri sədrdən, sədr müavinindən və Universitetin fakültə və kürsülərindən seçilmiş müəllimlərdən ibarətdir.

2.2. Komissiyanın sədri şikayətə baxılmasının ədalətli və obyektiv keçirilməsini təmin edir.

2.3. Komissiya tərəfindən şikayətlərə baxılarkən katib tərəfindən protokol tərtib edilir və apellyasiya şikayətinə baxılması və şikayətin nəticəsi protokollaşdırılır.

2.4. Apellyasiya komissiyasının üzvü nəticəsindən şikayət verilən imtahanda imtahanı yoxlayan (götürən) müəllim olduqda apellyasiya komissiyasının üzvü kimi apellyasiya şikayətinə baxılmasında iştirak edə bilməz.

2.5. Tələbə imtahanın nəticəsi ona bəlli olduğu tarixdən və ya Universitetin rəsmi internet səhifəsində yerləşdirildiyi gündən 1 ay ərzində Komissiyaya şikayət verə bilər.

2.6. Şikayətdə şikayətçinin adı, atasının adı, soyadı, təhsil aldığı fakültə, ixtisas, kurs və şikayətin yazıldığı tarix göstərilməli, həmçinin şikayət həmin şəxs tərəfindən imzalanmalıdır.

2.7. Apellyasiya şikayətinə 7 iş günü müddətində baxılır və müvafiq qərar qəbul edilir.

2.8. Apellyasiya şikayətinə baxılmasının yeri və vaxtı barədə ən azı 2 gün əvvəlcədən şikayət vermiş tələbəyə və dəvət edilmiş komissiyanın üzvünə (üzvlərinə) məlumat verilir.

2.9. Tələbə tərəfindən verilmiş apellyasiya şikayəti onun iştirakı ilə araşdırılır.

2.10. Komissiyanın üzvü şikayət vermiş tələbələrdən hər hansı biri ilə yaxın qohumluq və ya şəxsi yaxınlıq münasibətində olduqda, yaxud apellyasiya şikayətinə baxılması prinsiplərinin pozulmasına səbəb ola bilən hallar mövcud olduqda özü özünə etiraz edir. Tələbə qeyd olunan halları əsaslandırmaqla, komissiyanın hər hansı üzvünə (üzvlərinə) etiraz edə bilər. Apellyasiya şikayətinə baxılmasına başlanarkən komissiyanın sədri komissiya üzvlərindən öz üzvlükləri barədə bu bənddə nəzərdə tutulmuş etirazlarının olub-olmamasını soruşur.

2.11. Appellyasiya şikayətinə baxılarkən tələbə komissiyanın üzvlərinə və apellyasiya şikayətinə baxılmasında iştirak edən digər şəxslərə qarşı qeyri-etik hərəkətlərə yol verdikdə və ya apellyasiya şikayətinə baxılmasına maneçilik etdikdə komissiyanın sədri tərəfindən xəbərdarlıq edilə və ya apellyasiya şikayətinə baxılmasından kənarlaşdırıla bilər. Tələbə apellyasiya şikayətinə baxılmasından kənarlaşdırıldıqda apellyasiya şikayətinə onun iştirakı olmadan baxılır.

2.12. Apellyasiya şikayətinə baxılması üçün tələbənin imtahan vərəqəsi, habelə digər zəruri sənədlər komissiyaya təqdim edilir.

## 3. Apellyasiya şikayəti üzrə qərar qəbul edilməsi

3.1. Komissiya araşdırma nəticəsində aşağıdakı qərarlardan birini qəbul edir:

3.1.1. imtahanın nəticəsini qüvvədə saxlayır;

3.1.2. imtahanın nəticəsini ləğv edib yenidən qiymətləndirmə aparır.

3.2. Bu Qaydalarla tənzimlənməyən digər məsələlər apellyasiya komissiyası tərəfindən müəyyən edilir.

## 4. Komissiyanın məsuliyyəti

4.1. Komissiya fəaliyyətinin nəticəsinə görə Universitetin normativ sənədləri ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

4.2. Komissiya öz fəaliyyətinin nəticəsi üzrə imtahan semesterlərinin sonunda aralıq, tədris ilinin sonunda isə yekun hesabatı Universitet rəhbərliyinə təqdim edir.